# Azərbaycanı dünyaya tanıdan lider

***Hər bir Azərbaycanlı ulu öndərin həyat və fəaliyyətini daha dərindən öyrənmək zərurətini hiss edir. Cünki o yalnız yaşadığı dövrün deyil, müstəqil Azərbaycan Respublikasının gələcək inkişafına işıq saçan bir konsepsiya qoyub getmişdir. Odur ki, bu konsepsiyanı, onun həyatını və xarazmatik siyasi fəaliyyətini dərindən öyrənməyə dəyər. Reallıq da bundadır ki, dahi şəxsiyyətin milyonlara nümunə olan həyatı ilə yaxından tanış olanlar onun böyüklüyünü daha yaxşı dərk edir, ona daha çox yaxınlaşırlar.***



Azərbaycan tarixinin taleyüklü məqam və mərhələlərində vətəni ağır sınaqlardan çıxartmaq vəzifəsi böyük tarixi şəxsiyyətlərin üzərinə düşmüşdür. Belə şəxsiyyətlərdən biri də Heydər Əliyevdir. Heydər Əliyev dünyanın ən qüdrətli simaları sırasına yüksəlmiş nadir şəxsiyyətdir. Müasir ümumdünya tarixinin Azərbaycanlı dühasıdır. Azərbaycan tarixinin bir qərinəsi məhz onun adı, şəxsiyyəti, mübarizə yolu və misilsiz quruculuq fəaliyyəti ilə bağlıdır.

Sadə bir ailədə dünyaya göz acmış, min cür maneələrə sinə gərərək Yer kürəsinin altıda bir hissəsini əhatə edən SSRİ kimi nəhəng dövlətin rəhbərləindən biri səviyyəsinə ucalan Heydər Əliyev xalqımızın tarixinə əsl xilaskar kimi daxil olmuşdur. O, xalqının, torpağının misilsiz təəssübkeşi, 20-ci yüzilliyin 90-cı illərində yenidən müstəqilliyə qovuşmuş dövlətimizin—Azərbaycan Respublikasının xilaskarıdır. Bütün ruhu, varlığı ilə öz xalqına, doğma yurduna bağlı olan bu böyük şəxsiyyət bir-birinə zidd siyasi quruluşlarda fəaliyyət göstərsə də həmişə doğma vətəninə xidmət etmişdir.

Heydər Əliyev doğma xalqının dərdlərinə bələd olan, hələ cox gənc ikən məkrli qonşuların min bir hiyləsini öz gözləri ilə görən, mükəmməl təhsil almış, o cümlədən tarixi biliklərə dərindən yiyələnmiş böyük şəxsiyyətlərdəndir. O, yarım əsrdən artıq zəngin idarəçilik təcrübəsinə malik olan müxtəlif xarakterli və səviyyəli idarəçilik sisteminmin bütün incəliklərinə bələd olan məkrli düşmənlərin təqib və hiylələrindən sarsılmayıb yenidən böyük siyasətə qayıtmış polad iradə sahibidir. Planetimizin bugünkü siyasətini qabaqcadan görən, dünya liderləri içərisində seçilən, sayılan, hamı tərəfindən qəbul olunan əzəmətli şəxsiyyətdir.

Dahi şəxsiyyət vətənin bütün guşələrində Azərbaycanın haqqı tapdalanmış böyük şəxsiyyətlərinə abidələr ucaldırdı, represiya qurbanı olmuş böyük Hüseyn Cavidin ölümündən illər keçəndən sonra onun məzarını vətənə köçürdü.

Kerçdə, Krımda həlak olmuş minlərlə azərbaycanlının şərəfinə Sapun Qora yaxınlığında, Moskva, Taqanroq, Ulyanovsk və SSRİ-nin digər şəhərlərində abidələr qoyulmasına nail oldu.

Ulu öndər Böyük Vətən Müharibəsi Qəhrəmanlarının xatirəsini həmişə əziz tutmuş, onların SSRİ miqyasında tanınmalarına hər vechlə nail olmuşdur. Azərbaycanın fədakar əmək adamlarına, görkəmli sənət adamlarına, şairlərimizə, yazıçılarımıza, bəstəkarlarımıza Sosialist Əməyi Qəhrəmanı və digər fəxri adların verilməsinə nail olmuşdur.

1982—1987-ci illərdə SSRİ rəhbərliyində Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi fəaliyyət göstərən Heydər Əliyev rus şovinizminin və böyük dövlətçilik psixologiyasının hökmranlıq etdiyi Kreml rejiminə, bu rejimin yaratdığı təqiblər və ayrı-seçkilik siyasətinə sübut etdi ki, heç bir qüvvə onun zəngin, tükənməz və hərtərəfli dövlət idarəçiliyi istedadının qarşısnı ala bilməz. Elə buna görə də bacarıqsız Kreml rəhbərləri, xüsusilə də Qorbaçov Heydər Əliyevi özünə rəqib hesab edirdilər. Edilən bu məqsədli təqiblərin nəticəsində 1987-ci ildə Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosunun üzvlüyündən istefa verdi. Onun istefasından sonra güclü dayağını və müdafiəçisini itirmiş Azərbaycan xalqının haqq səsini eşidən olmadı və başına 20 Yanvar faciəsi gətirildi. Bu faciəni Heydər Əliyev öz dərdi kimi qəbul etdi. Yanvarın 21-də Azərbaycan Respublikasının Moskvadakı daimi nümayəndəliyində çıxış edərək xalqımıza başsağlığı verərək qatilləri də lənətləyən bəyanatla çıxış etdi.

1990-cı ilin iyununda Heydər Əliyev Bakıya gəlir və fəal ictimai həyata qoşulur. 1990-cı ildə Azərbaycan Parlamentinə deputat, 1991-ci ildə isə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə sədr seçilir. O, Naxçıvanda işləyərkən 1992-ci ilin noyabr ayının 21-də bu günümüzün və sabahımızın partiyası olan Yeni Azərbaycan Partiyasını (YAP-ı) yaradır və ona rəhbərlik edir.

> ***Onun ən fədakar əməyi ondan ibarət oldu ki, o, Azərbaycana rəhbər öz oğlunu—İlham Əliyevi məsləhət bildi.***
>
> **Eduard Şevardnadze.**

1988-ci ildən başlayaraq Azərbaycanda dərinləşməkdə olan ictimai-siyasi, hərbi böhran 1993-cü ildə son həddə çatdı. Faktiki olaraq dövlət idarəçiliyi yox idi. Vətən, torpaq hərraca qoyulmuşdu. Bax, elə bu fəlakət anında yeganə ümid yeri, qurtuluş çırağı məhz Heydər Əliyev olmuşdur. Xalqın çağrışını qəbul edən Heydər Əliyev 1993-cü ilin iyun ayının 9-da Bakıya gəldi və 15 iyunda Azərbaycan Respublikasının Ali Sovetinə sədr seçildi. Bununla da ölkənin həyatında dönüş başladı.

1993-cü ilin oktyabr ayının 3-də isə xalq onu yekdilliklə Azərbaycan Respublikasının Prezidenti seçdi. Elə həmin gündən qurtuluş savaşında qələbəyə doğru əlverişli zəmin yarandı. Azərbaycan parçalanıb yox olmaqdan qurtuldu. Əvvəlki rəhbərlərdən fərqli olaraq Heydər Əliyev dar ayaqda xalqını, vətənini qoyub qaçmadı. Öz qətiyyəti və düşünülmüş hərəkəti ilə sübut etdi ki, Azərbaycan dövləti, onun müstəqilliyi əbədidir.

Müdrik rəhbər müharibə məsələsində də düzgün mövqe tutdu və ordu quruculuğunu möhkəmləndirmək və vaxt qazanmaq məqsədi ilə 1994-cü ilin may ayında atəşkəsə nail oldu. Yaranmış bu sabitlikdən və sakitlikdən istifadə olunaraq 1995-ci ilin noyabr ayının 12-də ümumxalq səsverməsi—referendum yolu ilə qəbul edilmiş müstəqil Konstitutsiyamız da məhz Heydər Əliyevin adı ilə bağlıdır. 1998-ci ildə Şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm hökmü ləğv edilmişdir. Bütün bu demokratik addımların sayəsində Azərbaycan ulu öndərin rəhbərliyi altında dünyanın bir sıra konvensiyalarına, iqtisadi birliklərinə üzv qəbul olunmuşdur.

1994-cü il sentyabrın 20-də onun təşəbbüsü ilə iqtisadi və siyasi təfəkkürün bəhrəsi olan, milli həyatımızda qlobal əhəmiyyətə malik «Əsrin müqaviləsi» imzalandı. Dünyanın aparıcı dövlətləri ilə bağlanmış həmin saziş sübut etdi ki, Azərbaycan artıq bütün xarici müdaxilələrdən qurtulmuşdur. Bu baxımdan 1998-ci ilin sentyabr ayının 7—8-də 32 dövlətin, 13 beynəlxalq təşkilatın iştirakı ilə Bakının Gülüstan sarayında imzalanmış «Böyük İpək Yolu» sazişi də Azərbaycan tarixinin ən qiymətli uğurlarından biridir.

Azərbaycan hazırda 21-ci yüz illiyin başlanğıcında demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolunda uğurla addımlayır. Azərbaycanın xoşbəxt gələcəyi üçün ulu öndərin qoyub getdiyi bütün nəzəriyyələr onun layiqli varisi, Azərbayca Respublikasının Prezidenti İlham Əliyev tərəfindən müvəffəqiyyətlə reallaşır.

Bütün bunlar üçün qədirbilən xalqımız dahi xilaskar Heydər Əliyevə borcludur.

**Fərman HACIYEV,**
**DİXİ Hİ Qəbələ**
**Rayon Komitəsinin**
**sədri, əmək veteranı.**